# THE ROLE OF THE TEACHER IN THE FORMATION OF THE PEDAGOGICAL COMPETENCIES IN THE PARENTS OF PRIMARY SCHOOL STUDENTS

**Sabina Guliyeva**
Doctoral student in Pedagogy and Psychology of Baku Slavic University
E-mail: sabinaquluyeva78@gmail.com
https://orcid.org/0000-0002-5002-4321

**Abstract.**The article emphasizes that reforms are being implemented in the field of education in our country today. New educational infrastructures are being created, content is being updated, and new approaches are being applied to the training of teachers. However, these are not enough to succeed in education, because the views of the majority of parents on the education of children do not meet modern requirements. Family-school relationships weaken year after year as students move into the upper grades.The pedagogical skills of parents lag behind the requirements of educational reform. The article examines the impact of family-school cooperation on the formation of pedagogical competencies in parents, analyzes various models of pedagogical skills development in parents, traditional and non-traditional forms of parent-teacher cooperation.

**Keywords:** pedagogical competence, cooperation, school, competent parents, education.

**DOI:**
**To cite this article:** Guliyeva S. (2021). The role of the teacher in the formation of the pedagogical competencies in the parents of primary school students. *Journal of Preschool and Primary Education*, Vol. 237, Issue IV, pp. 83-95
**Article history:** received – 09.10.2021; accepted - 17.10.2021.

# İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN VALİDEYNLƏRİNDƏ PEDAQOJİ KOMPETENSİYALARIN FORMALAŞMASINDA MÜƏLLİMİN ROLU

**Səbinə Quliyeva**
Bakı Slavyan Universitetinin Pedaqogika
və psixologiya kafedrasının doktorantı
E-mail: sabinaquluyeva78@gmail.com
https://orcid.org/0000-0002-5002-4321

**Annotasiya.** Məqalədə qeyd olunur ki, bu gün respublikamızda təhsil sahəsində islahatlar həyata keçirilir. Təhsillə bağlı yeni infrastrukturlar yaradılır, məzmun yeniləşdirilir, müəllim kadrlarının hazırlığında yeni yanaşmalar tətbiq olunur. Bütün bunlara baxmayaraq, təhsildə uğur qazanmaq üçün bunlar kifayət etmir, çünki valideynlərin böyük əksəriyyətinin uşaqların təlim-tərbiyəsi ilə bağlı baxışları müasir tələblərə cavab vermir. Ailə-məktəb əlaqələri ildən-ilə, şagirdlər yuxarı siniflərə keçdikcə zəifləyir. Valideynlərin pedaqoji bacarıqları təhsil islahatlarının tələblərindən geri qalır. Məqalədə ailə-məktəb əməkdaşlığının valideynlərdə pedaqoji kompetensiyaların formalaşmasına təsiri araşdırılmış, valideynlərdə pedaqoji bacarıqların inkişafının müxtəlif modelləri, valideyn-müəllim əməkdaşlığının ənənəvi və qeyri-ənənəvi formaları təhlil olunmuşdur.
**Açar sözlər:** pedaqoji səriştə, əməkdaşlıq, məktəb, səriştəli valideynlər, təhsil.

**DOI:**
**Məqaləyə istinad:** Quliyeva S. (2021). İbtidai sinif şagirdlərinin valideynlərində pedaqoji kompetensiyaların formalaşmasında müəllimin rolu. «*Məktəbəqədər və ibtidai təhsil*», № 4 (237), səh. 83-95
**Məqalə tarixçəsi:** göndərilib – 08.10.2021; qəbul edilib – 19.10.2021.

## Giriş / Introduction

Azərbaycan Respublikasında ailə dövlətin tam himayəsi altındadır. Ailənin hər bir üzvünün hüquq və vəzifələri qanunla qorunur. Dövlət böyüməkdə olan nəslin kiçik yaşlardan fiziki və intellektual cəhətdən inkişafını, tam orta təhsil almasını, əxlaqi-mənəvi yetkinliyini təmin etmək məqsədilə, təlim-tərbiyə müəssisələri ilə yanaşı, valideynlərin də hüquq və vəzifələrini müəyyən etmişdir. Hər bir valideyn himayəsində olan uşaqları humanist, vətənpərvər, əməksevər, azərbaycançılıq ideologiyasına sədaqət, öz tarixinə, ədəbiyyatına, dilinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə etməlidir. Azərbaycan Respublikasının ailə məcəlləsində göstərilir: "Valideynlər uşaqların əsas ümumi təhsil almasını təmin etməyə, onları tərbiyə etməyə borcludurlar" [Azərbaycan Respublikasının ailə məcəlləsi. http://www.e-qanun.az/code/10]. Valideynlər bu məsul işin öhdəsindən layiqincə gəlmək üçün övladlarının oxuduqları təhsil müəssisələri ilə əməkdaşlıq etməlidirlər. Valideyn-müəllim əməkdaşlığında iki aspekt xüsusilə diqqəti cəlb edir:

1) Valideynlər mütəmadi olaraq övladlarının təhsilə marağı, sinif yoldaşları və müəllimləri ilə ünsiyyət bacarığı, davranışı, dərsə davamiyyəti, təlim nailiyyətləri, peşə marağı haqqında məlumat alır, onların oxuduqları siniflərdə təhsil prosesinin səmərəli və keyfiyyətli təşkili ilə tanış olurlar.

2) Valideynlər məktəbin təşkil etdiyi tədbirlərdə, seminarlarda, uşaqların təlim-tərbiyəsinə həsr olunmuş layihələrin təqdimatında, valideyn iclaslarında, məktəbin idarə edilməsində iştirak etməklə maariflənir, pedaqoji biliklərini artırırlar. Valideyn-müəllim əməkdaşlığının səmərəli təşkili (fərdi və ya kollektiv) valideynlərdə pedaqoji kompetensiyaların formalaşmasında mühüm rol oynayır. Hər bir şagirdin valideyninin müəllimlə əməkdaşlığı həmin şagirdin həyat yolunun düzgün müəyyənləşdirilməsində mühüm əhəmiyyət kəsb edir.

V.A.Suxomlinski müəllimi həkimlə müqayisə edərək yazırdı: "Həkim insanın sağlamlığının hansı amillərdən asılı olduğunu araşdırdığı kimi, müəllim də uşağın mənəvi aləmini araşdırmalıdır" [Suxomlinskiy V.A. 2003]. Valideyn öz övladı, müəllim şagirdləri haqqında hərtərəfli məlumatlara malik olmasa, uşaqların inkişafını layihələşdirməkdə çətinlik çəkərlər. Bu isə valideynlərdən və müəllimlərdən məsələyə kompleks yanaşma tələb edir. Bunun üçün uşağı məktəbə gələn valideyn ilk gündən pedaqoji prosesin iştirakçısına çevrilməlidir.

Tədqiqat zamanı müşahidə, müsahibə, anket və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Tədqiqatda Mingəçevir şəhərindəki R.Mirabov adına 7 №-li, 20 №-li tam orta məktəbin, R.Muradov adına texniki-humanitar liseyin, Təbiət-Riyaziyyat və Humanitar Təmayüllü liseyin, Yevlax rayonunun Xaldan

kənd kompleks tam orta məktəbinin ibtidai sinif şagirdlərinin valideynləri iştirak etmişlər.

## Əsas hissə / Main part

Müəllim-valideyn əməkdaşlığının forma və yollarının nəzəri cəhətdən işlənməsi və praktik cəhətdən tətbiq edilməsi Azərbaycan maarifçilərini və məktəbdarlarını həmişə düşündürmüşdür. Gənc nəslin tərbiyəsində müəllimlə valideynlərin qarşılıqlı əlaqəsinin öyrənilməsinə, əsasən, XIX əsrin ikinci yarısından başlanmışdır. Azərbaycanda dövlət məktəblərinin yaranması, maarifçilik hərəkatının genişlənməsi məktəb yaşlı uşaqların təlim-tərbiyəsi ilə yanaşı, onların valideynlərinin də xeyriyyə cəmiyyətləri tərəfindən yaradılan cümə məktəblərində və axşam məktəblərində oxuması məsələsini aktuallaşdırmışdı. Əgər həmin dövrdə rus pedaqoqlarından K.D.Uşinski, V.P.Vaxterov, P.F.Kapterev, P.F.Lesqaft ailə və məktəb tərbiyəsini əlaqələndirməyin zəruriliyi haqqında yazırdılarsa, Azərbaycan maarifçilərindən M.F.Axundov, A.A.Bakıxanov, M.Ş.Vazeh, H.B.Zərdabinin sosial-pedaqoji görüşlərində uşaqların tərbiyəsində valideynlərin, xüsusilə anaların rolu ön plana çəkilirdi. M.F.Axundov “qadın tayfasını həbsdə və pərdədə saxlamağın saysız-hesabsız zərərləri” olduğunu bildirərək deyirdi: “Onları tərbiyəsiz qoymayın” [Axundov M.F., 1988].

H.Zərdabi uşaqların ilk tərbiyəni ailədə, analarından almalı olduqlarını bildirərək yazırdı ki, əgər analar kömək etməsələr, məktəb uşağa təkbaşına tərbiyə verə bilməz [“Əkinçi” qəzeti (1875–1877), 1979]. Məmmədağa Şahtaxtinski uşağın tərbiyəsində ananın təsirinin böyük olduğunu, bir çox şeylərin anadan uşağa keçdiyini bildirərək deyirdi: “Analar uşaqların təbii tərbiyəçiləridir” [Şahtaxtinski M., 2006 ].

F.B.Köçərli, R.Əfəndiyev, N.Nərimanov, C.Məmmədquluzadə, Ü.Hacıbəyov, Ə.Hüseynzadə, S.M.Qənizadə, F.Ağazadə, A.Səhhət və b. uşaqların tərbiyəsində ananın rolunu yüksək qiymətləndirir, qadınların təhsil almaları və cəmiyyətin fəal üzvlərinə çevrilmələri uğrunda mübarizə aparırdılar. M.Ə.Rəsulzadə anaları milli təfəkkürün daşıyıcıları hesab edir, millətin mənəvi diriliyində onların vacib rolunu önə çəkirdi. N.Nərimanov uşaqların təbii imkanlarının inkişafını ailə və məktəb tərbiyəsinin vacib şərti hesab edirdi.

Ümumiyyətlə, XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycanın təlim-tərbiyə sistemində çox mühüm mərhələdir. Azərbaycan mütəfəkkürləri bu dövrdə həm təlim-tərbiyənin nəzəri-metodoloji, həm də praktik problemləri ilə ciddi məşğul olmuş, böyüməkdə olan nəslin əxlaqi-mənəvi, fiziki və ruhi inkişafı ilə bağlı ciddi elmi tədqiqatlar aparmışlar. Onların zəngin pedaqoji irsində ailə tər-

biyəsi, uşaqların təlim-tərbiyəsi və valideyn-müəllim əməkdaşlığı ilə bağlı dəyərli fikirlər vardır. Pedaqoji fikir klassiklərinin nəzəri irsinin təhlili nəticəsində həmin dövrdə ailə və məktəb əməkdaşlığının aşağıdakı modellərini müəyyənləşdirə bilərik:

**1.** ***"Məktəb sosial mühitdə təhsil mərkəzidir" modeli***. Burada bütün təlim-tərbiyə vasitələri uşağın ətrafında birləşir.

**2.** ***"Ənənəvi məktəb" modeli*** – ailədə təlim-tərbiyə mühitinin yaxşılaşdırılmasına, valideyn-müəllim əlaqələrinin genişlənməsinə təsir göstərir.

**3.** ***"Üfüqi xətlər" modeli.*** Bu model XX əsrin 20-ci illərində Azərbaycanda geniş yayılmışdı. Həmin modeldə müəllim yeni yaradılan təhsil müəssisələrində mühitin pedaqojiləşdirilməsində, uşaqların və valideynlərin özünüinkişafı, özünütəşkili və özünütərbiyəsinin təşkilində mühüm rol oynamalı idi.

XX əsrin 30-cu illərinin ikinci yarısında müəllim və valideyn əməkdaşlığında demokratik yanaşmalar arxa plana keçdi, məktəbin ailəyə avtoritar təsiri artdı. Bu dövrdə «sosial mühitə nəzarət məktəbi» modeli tətbiq olundu. Uşaqların məktəbdə, küçədə, ailədəki davranışlarına görə məsuliyyət daşıyan müəllim həm də uşaqları mühakimə etmək səlahiyyəti qazandı. Bütün bunlar ailə tərbiyəsinə, valideyn-övlad münasibətlərinə, uşaqların ailədə davranışına ciddi nəzarət demək idi. Hər bir məktəbəqədər yaşlı uşaq əvvəlcədən yaşayış yerində məktəb reyestrində qeydiyyata alınırdı. Məktəb, bir qayda olaraq, nə valideynlərin, nə də şagirdlərin fikir və istəklərini nəzərə almadan onların həyat yolunu müəyyənləşdirirdi. Məktəb şagirdlərin tərbiyəsi ilə bağlı müəyyənləşdirdiyi tələbləri valideynlərə "valideyn universitetləri», pedaqoji mühazirələr, fərdi söhbətlər vasitəsi ilə çatdırırdı. Valideynlərin pedaqoji hazırlığı ilə bağlı proqramlar məktəb tərəfindən hazırlandığından, onlarla aparılacaq pedaqoji işin məzmunu, formaları (kollektiv, fərdi) və üsulları (mühazirə, fərdi söhbət) müəllimlər tərəfindən müəyyən edilirdi. Hüquqi cəhətdən ailə məktəbdən asılı vəziyyətdə olduğundan heç bir təşəbbüslə çıxış edə bilməzdi. Həyata keçirilən tərbiyə işinə nəzarət və rəsmi qiymətləndirmə mexanizmi olmadığından məktəbin ailəyə təsiri böyük idi. Ailənin dövlətin və məktəbin təhsil siyasətini qeyd-şərtsiz dəstəkləməsi, uşaqların təliminə və davranışına nəzarət etməsi, valideyn iclaslarında və pedaqoji mühazirələrdə siyasi və pedaqoji hazırlığını artırması, məktəbin təsərrüfat və tərbiyəvi tədbirlərinə kömək etməsi tələb olunurdu.

XX əsrin 50-ci illərində müəllim və valideynlər arasında əməkdaşlığın daha demokratik modelinə üstünlük verildi. Müharibədən sonrakı dövrdə ictimai-siyasi həyatda baş verən yumşalmalar ailə və məktəb münasibətlərinə də ciddi təsir etdi. Ə.Seyidov, M.Mehdizadə, M.Muradxanov, B.B.Komarovski, İ.Vəlixanlı və b. məktəbli şəxsiyyətinin formalaşmasında ailə ilə məktəbin qarşılıqlı əlaqələrinin demokratik yanaşmalar əsasında qurulmasının vacib olduğunu bildirdilər.

Müəllimlərin valideynlərlə işinin məzmununun iki əsas istiqaməti fərqləndirildi:1) uşaqlarda xarakter tərbiyəsi;

2) uşaqların nizam-intizamına və təlim nailiyyətlərinə nəzarət [Muradxanov M., İtelson L., 1955]. Cəmiyyətdə baş verən mülayimləşmə dövründən sonra uşaqların ailədə və məktəbdə intizam tərbiyəsinin məzmununda da dəyişikliklər yarandı. Məktəbin ailəyə təzyiqi bərabərhüquqlu əməkdaşlıqla əvəz edildi. Həm məktəbdə, həm də ailədə uşaqların tərbiyəsində pedaqoji-psixoloji tələblər ön plana çəkildi. Şagirdləri inzibati yollarla təhsilə cəlb etmək əvəzinə onların təşəbbüskarlığının, yaradıcı imkanlarının artırılması və intizamlı olmaları üçün lazımi mühitin yaradılması ideyası irəli sürüldü.

XX əsrin 60–70-ci illərində ailə ilə məktəbin qarşılıqlı əlaqələrində demokratikləşdirmə prosesi davam etdirilirdi. Bu, hər şeydən əvvəl, yeni insan − hərtərəfli və ahəngdar inkişaf etmiş məktəbli şəxsiyyəti formalaşdırmaq konsepsiyası ilə bağlı idi. Mənəvi zənginliyi, əxlaqi saflığı və fiziki kamilliyi ilə seçilən gənc nəslin tərbiyəsi ailə ilə məktəbin qarşılıqlı əlaqəsi sayəsində mümkün ola bilərdi. Həmin dövrdə şagirdlərdə həyat və ictimai fəallığa vətəndaş münasibətinin formalaşdırılması ön plana çəkildi. Ailə − məktəb əlaqələrinin forma və yolları təkmilləşdirildi. Valideynlər arasında təhsil səviyyəsinin yüksəlməsi valideyn-müəllim əməkdaşlığına yeni məzmun və istiqamət gətirdi.

XX əsrin 80 – 90-cı illərinin ikinci yarısında cəmiyyətdə aparılan islahatlar nəticəsində təhsil sistemində dəyişikliklər başlayır. Bununla əlaqədar olaraq, müəllim və valideynlər arasında qarşılıqlı əlaqə probleminin həllində intensiv axtarışlar aparılır. Bu dövrdə nəzəri və təcrübi baxımdan müəllimlərlə valideynlər arasında əməkdaşlığın forma və metodları təkmilləşdirilir, məktəbin ailə ilə işinin məzmunu müəyyənləşdirilir, valideynlərdə pedaqoji mədəniyyəti inkişaf etdirmək üçün diferensial yanaşma ideyası irəli sürülür.Valideynlərlə aparılan pedaqoji maarifləndirmənin nəzəri müddəaları dəqiqləşdirilir, ailədaxili münaqişələrin səbəbləri araşdırılır, valideynlərə uşaqlarının təlim-tərbiyəsi ilə bağlı konkret tövsiyələr verilirdi.

Son onilliklərdə cəmiyyətdə baş verən sosial-iqtisadi proseslər valideyn-müəllim əməkdaşlığında ciddi dəyişikliklərə səbəb oldu. Yeni tipli təhsil müəssisələri (gimnaziya, lisey və s.) yaradıldı, ingilis, fransız, alman, türk dilli məktəblər fəaliyyət göstərməyə başladı. Təhsilin məzmununda ciddi dəyişikliklər edildiyi kimi, təhsil və təlimin formalarında da dəyişikliklər olundu. Valideynlər müxtəlif təhsil müəssisələrinin xidmətlərini araşdırmaq, daha üstün bildiklərini seçmək imkanı əldə etdilər. Nəticədə birbaşa və dolayı yolla məktəblərə təsir etmək mümkün oldu.

XX əsrin 30–40-cı illərində məktəbin ailəyə təsir imkanları böyük idisə, 50-ci illərdə bu təsir tədricən azalmağa başladı. 60–70-ci illərdə məktəb və ailənin qar-

şılıqlı əlaqələri bərabərhüquqlu subyektlərin əməkdaşlığına çevrildi. Son onillikdə valideynlərin məktəbə təsir imkanları xeyli genişləndi. Bütün bunlarla yanaşı, uşaqların davranışında xeyli mənfi cəhətlər meydana gəlmişdi. Sosial şəbəkələr, televizor, sosial media və digər informasiya mənbələri uşaqların milli-mənəvi dəyərlər əsasında tərbiyəsinə mənfi təsir göstərir.

Ailə-məktəb əməkdaşlığına mənfi təsir göstərən amillərdən biri də ailələrin sosial və iqtisadi göstəricilərinə görə bir-birindən kəskin şəkildə fərqlənməsidir. Əhalinin sosial təbəqələşməsi nəticəsində valideyn qruplarının hər birinin fərqli təhsil ehtiyacları yarandı. Valideynlər təmsil etdikləri sosial təbəqənin hədəflərinə uyğun olaraq, uşaqlarının təlim-tərbiyəsi, inkişafı ilə bağlı adekvat tələblər və gözləntiləri müəyyənləşdirdilər. Müəyyən sosial təbəqənin təmsilçiləri olan valideynlərin təhsillilik səviyyəsinin müəllimlərə yaxın (bəzi hallarda hətta daha yüksək) olması ailə-məktəb əməkdaşlığında fərqli modellər yaratdı. Təhsil prosesinə, böyüməkdə olan nəslin tərbiyəsinə nüfuz edən sosial təbəqələşmə nəticəsində məktəb valideynlərin, medianın və ümumiyyətlə, cəmiyyətin ciddi tənqid hədəfinə çevrildi.

Tədqiqatçılar tərəfindən valideynlərin pedaqoji prosesə cəlb edilməsi məsələsi yenidən elmi diskussiyaların mövzusuna çevrildi, valideynlər üçün vahid pedaqoji tələblər (uşaqların gələcəyi, fiziki, əqli, əxlaqi tərbiyəsi sahəsində məsuliyyət) müəyyənləşdirildi. Ailə tərbiyəsinin nəzəri və praktiki məsələlərini araşdıran tədqiqatçılar tərəfindən "pedaqoji əməkdaşlıq, "səmərəli tədris əməkdaşlığı" anlayışları elmi dövriyyəyə daxil edildi və əməkdaşlığın tipləri (valideynlərin məktəbə dəvət olunması, valideyn iclasları, "Valideyn günü", valideyn universitetləri, pedaqoji mühazirələr və s.) müəyyənləşdirildi. Pedaqoji əməkdaşlığın səmərəli təşkili ailənin tərbiyə sahəsində fəaliyyətinin səmərəliliyini artırmağın mühüm şərti kimi araşdırıldı.

Ailə və məktəb əməkdaşlığının müasir modeli *demokratikliyi, humanistliyi və müasirliyi* ilə diqqəti cəlb edir. Müasir modelin nəzəri əsasları "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda ["Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. "Xalq qəzeti", 19 iyun, 2009-cu il] öz əksini tapmışdır.

Müəllim və valideynlərin əməkdaşlığı məktəb həyatının bütün mərhələlərində vacibdir, lakin uşağın məktəbə getməsinin ilk illərində xüsusi əhəmiyyət kəsb edir. Bu illərdə uşaq hələ də ailə ilə sıx bağlı olduğundan hisslərini və davranışını idarə edə bilmir. Kiçik məktəb yaşı dövründə uşağın fəaliyyət rejimi dəyişir, təlim aparıcı fəaliyyət növünə çevrilir, ünsiyyətində və digər adamlarla münasibətlərdə fərqli situasiyalar yaranır. Uşağın yeni vəzifələri (təhsil almaq, məktəbin daxili nizam-intizam qaydalarına əməl etmək və s.) meydana gəldiyindən onun həyat tərzi də dəyişir. İbtidai sinif şagirdlərinin şəxsiyyətinin təşəkkülü ailədə və məktəbdə (sinif yoldaşları və müəllimlərlə ünsiyyət prosesində) yeni fəaliy-

yət növünün və ünsiyyətdə olduğu insanların təsiri altında baş verdiyindən bu mərhələdə valideyn–müəllim əməkdaşlığı xüsusi əhəmiyyət daşıyır. Birinci sinif şagirdlərinin məktəbə adaptasiyası onların ailədəki psixoloji hazırlığı ilə sıx bağlıdır. Valideynlərin əksəriyyəti uşağın məktəbə hazırlığını bilik səviyyəsi ilə ölçürlər. Onların fikrincə, əgər uşaqlar saymağı, şeir deməyi bacarırlarsa, hərfləri tanıyırlarsa, deməli, məktəbə hazırdırlar. Bu, doğru yanaşma deyil.Valideynlər uşağa yazı və oxu öyrətməzdən əvvəl ona özünəinam hissi aşılamalı, fikirlərini sadə şəkildə ifadə etməyi öyrətməli, məktəbə həvəsləndirməlidirlər. Valideynlər uşaqların sosiallaşmasına ciddi yanaşmalı, bu məqsədlə onları məktəbəqədər müəssisəyə qoymalı, onlarla birlikdə olmaq üçün vaxt ayırmalıdırlar. Təlim prosesi müəllimin fəaliyyət proqramına aid olduğundan o, zəruri bilikləri şagirdlərə, onların yaş və idrak səviyyələrinə uyğun olaraq, sistemli və ardıcıl şəkildə öyrədir. Uşaqlar psixoloji cəhətdən məktəbə hazır olmadıqda həm məktəbəhazırlıq qrupunda, həm də məktəbdə müəllimə və sinif yoldaşlarına uyğunlaşa bilmir, öz etirazlarını ağlamaqla bildirirlər. Bunun əsas səbəbi valideynlərin ailədə uşaqlarının sosiallaşması üçün mühit yarada bilməmələridir. Belə uşaqların həmyaşıdları və müəllimlərlə münasibətində müşahidə olunan anlaşılmazlıqlar onların aqressivliyi və əsəbiliyi ilə bağlı olur.

İbtidai məktəb hər uşağın həyatında xüsusi bir mərhələdir. Təhsilin bu səviyyəsində həm müəllimlərdən, həm də valideynlərdən xüsusi diqqət tələb olunur. Uşaq məktəbə daxil olduqdan sonra təhsil fəaliyyətinə keçid baş verir, onun xarici aləmlə qarşılıqlı əlaqələri genişlənir, onda təhsilə, məktəbə, müəllimə və həmyaşıdlarına müsbət münasibət, yeni sosial mövqe formalaşmağa başlayır. Şagirdin üzərinə qoyulmuş yeni vəzifələrin həlli, yeni məsuliyyətin dərk olunması ibtidai sinif müəllimi və valideynlər arasında əməkdaşlığın səmərəli təşkilindən asılıdır. Bu əməkdaşlığın məzmununun əsas istiqamətini "müəllim–valideyn–şagird" zəncirində qarşılıqlı əlaqə, ünsiyyət, münasibət, məlumat mübadiləsi və birgə fəaliyyətin formalaşdırılması təşkil edir.

Qarşılıqlı əlaqənin müxtəlif formaları və komponentləri var. Müəllim–valideyn əməkdaşlığının *təşkilati və prosedur komponentlərinə* müəllim və valideynlərin sistematik, davamlı qarşılıqlı əlaqəsi, uşağın təlim-tərbiyəsi ilə bağlı işin təşkili və yekunlaşdırılması, həmçinin müəllimlə valideynlər arasında qarşılıqlı əlaqənin *metodları, vasitələri, formaları və prinsipləri* daxildir.

Müəllim-valideyn əməkdaşlığının səmərəliliyi metodların düzgün seçilməsindən və tətbiqindən asılıdır. "Pedaqoji mənada metod – həyat həqiqətlərini optimal yolla şagirdlərə çatdırmaq, onları proqram çərçivəsində bilik, bacarıq, vərdişlərlə silahlandırmaq, məktəblilərdə zəruri keyfiyyətləri (vətənpərvərlik, əməksevərlik, igidlik, xeyirxahlıq və s.) formalaşdırmaq üçün həyata keçirilən hərəkətlər sistemidir" [Əhmədov B.,1974]. Bu prosesdə şagirdlər müəllimin

rəhbərliyi altında bilik, bacarıq və vərdişlər sisteminə yiyələnirlər. Müəllim–valideyn əməkdaşlığının səmərəliliyinin göstəricisi olan metodlar dedikdə isə təlim-tərbiyə problemlərini həll etmək məqsədi ilə pedaqoji prosesin iştirakçıları olan müəllim, şagird və valideynlər arasındakı qarşılıqlı əlaqənin formaları başa düşülür. Müəllim uşaqların təlim-tərbiyəsində ailə ilə məktəbin əməkdaşlığının nəticələrini proqnozlaşdırmaq, düzgün layihələşdirmə aparmaq üçün pedaqoji fəaliyyətin metodlarının özünəməxsus xüsusiyyətlərini bilməlidir. Yuxarıda qeyd etdiyimiz kimi, uğurlu nəticənin alınması metodlardan ən optimalının seçilməsindən və tətbiqindən asılıdır.

Müəllim–valideyn əməkdaşlığında metodların düzgün seçilməsi valideynlərin pedaqoji maariflənməsində, pedaqoji mədəniyyətinin formalaşmasında mühüm rol oynayır. Zəruri pedaqoji səriştələrə yiyələnən valideyn uşaqların tərbiyəsində düzgün metodlar tətbiq etdiyinə görə nüfuzu və şəxsi nümunəsi ilə seçilir, ailədə tərbiyə prosesini təşkil edərkən müəyyən tələbləri nəzərə alır.

Müasir dövrdə müəllim–valideyn əməkdaşlığında daha çox aşağıdakı metodlardan istifadə olunur: *mühazirə, müsahibə, məsləhət, müzakirə, disput və treninqlər.* Seçilən metodun müəllim–valideyn əməkdaşlığının formalarına (kollektiv, qrup, fərdi) uyğunluğu onun səmərəliliyini təmin edir.

Ailədə uşağın şəxsiyyət kimi formalaşmasına təsir göstərən amillər çoxdur. Bu amillərə aşağıdakılar daxildir:

1) uşağın şəxsi potensialı və xarakteri;

2) valideynlərin hər ikisinin uşaqların tərbiyəsində iştirak edib-etməməsi;

3) tərbiyəvi təsirlərdə (ailə üzvləri arasında, ailə-məktəb arasında) vahidliyin gözlənilməsi;

4) ailədə tərbiyə işinin sistemli, ardıcıl və fasiləsiz aparılması;

5) uşağın şəxsiyyətinə hörmətlə yanaşılması;

6) valideynlərin səmimiyyəti və mehribanlığının uşağın tərbiyəsi üçün sağlam mühit formalaşdırması.

Müəllim–ailə əməkdaşlığında daha çox kütləvi iş formalarından istifadə olunur. Təcrübədə müəllim–valideyn əməkdaşlığında fərdi məsləhətlər və evlərə gedişlər də baş verir. Valideynlərin pedaqoji imkanlarını öyrənmək, ailəyə pedaqoji dəstək göstərmək məqsədilə müəllimlərin uşaqların evlərinə getməsi ənənəsi ötən əsrin 70–80-ci illərində yaranmışdı. Müəllimlər evlərdə olarkən uşaqların mənzil şəraiti, ailə üzvlərinin tərkibi, onların pedaqoji mədəniyyətinin səviyyəsi, uşaqların oxuması üçün yaradılan şəraitlə tanış olmaqla yanaşı, həm də onların fərdi xarakter xüsusiyyətləri ilə bağlı zəngin məlumatlar toplayır, onlarda şagirdlərin təlim uğurları və tərbiyə səviyyəsi ilə bağlı tam təsəvvür formalaşırdı. Təəssüf ki, son zamanlarda bu ənənə unudulmaqdadır.

Müasir dövrdə ənənəvi iş formaları ilə yanaşı, həm də qeyri-ənənəvi iş forma-

ları həyata keçirilir. Son illərə kimi müəllimlər şagirdlərin valideynləri ilə praktik iş zamanı ailə–məktəb əlaqələrinin, əsasən, ənənəvi formalarından istifadə edirdilər. 2020-ci ildə, koronavirus pandemiyasının dünyanı fəlakət qarşısında qoyduğu bir zamanda Azərbaycanda həyata keçirilən qabaqlayıcı tədbirlər sırasında bütün təlim-tərbiyə müəssisələri müvəqqəti olaraq öz fəaliyyətini dayandırdı. Təhsilin fasiləsizliyini təmin etmək məqsədilə *Zoom, Microsoft Teams, Skype* platformalarında dərslər təşkil olundu. Bu platformalardan səmərəli istifadə müəllim-valideyn əməkdaşlığına yeni məzmun gətirdi. Müəllim–valideyn əməkdaşlığının *qeyri-ənənəvi formaları*, yəni yeni modeli (onlayn məsləhətləşmə, onlayn müzakirə, onlayn sinif iclaslarının keçirilməsi və s.) yarandı. Əslində, bu proses ölkənin bəzi məktəblərində başlanmışdı. Həm dövlət, həm də özəl məktəblərin bəzilərində neçə illər idi ki, elektronlaşdırma həyata keçirilir, elektron jurnal, elektron gündəlik tətbiq edilirdi. Valideynlər müasir texnologiyaların köməyi ilə evdə və ya işdə, onlayn rejimdə övladlarının oxuduğu məktəblərdə təlim-tərbiyə prosesinin təşkili ilə tanış olur, uşaqlarının təlim nəticələrinə nəzarət edir, müəllimlərlə əlaqə saxlayır və fikir mübadiləsi aparırdılar. Məktəblərin elektronlaşdırılması sahəsində, az da olsa, müsbət təcrübə toplanmışdı. Koronavirus epidemiyası isə bu işi daha da sürətləndirdi və onun əhatə dairəsini genişləndirdi. Valideynlər onlayn platformalarda işləmək bacarığına yiyələndilər. Onlayn rejimdə dərs prosesində iştirak edən şagirdlərin valideynləri də müəllimlərlə əlaqə saxlamaq və uşaqlarına kömək etmək məqsədi ilə həmin proqramı öyrənməli oldular. Ümumtəhsil məktəblərində distant təhsilin tətbiqi perspektivsiz görünsə də, müəllim və valideynlərin onlayn görüşlərinin davamlı olacağı şübhə doğurmur.

Müəllim–valideyn əməkdaşlığının nəticələrinin səmərəli olması optimal metodların tətbiqi ilə yanaşı, həm də müəyyən prinsiplərin nəzərə alınması ilə bağlıdır. Elmi-pedaqoji ədəbiyyatı və mövcud təcrübəni ümumiləşdirərək müəllim və valideynlər arasındakı qarşılıqlı əlaqənin prinsiplərini aşağıdakı kimi müəyyənləşdirmək olar:

– tərbiyəvi təsirlərdə vahidlik prinsipi;
– müsbət cəhətlərə istinad etmək (nikbinlik) prinsipi;
– fərdi yanaşma;
– subyektivlik;
– şəxsiyyətlərarası münasibətlərin humanistləşdirilməsi. [Paşayev Ə., Rüstəmov F., 2012; Abbasov A., 2019; Çələbiyev N. 2015].

Tərbiyə prosesində olduğu kimi, müəllim–valideyn əməkdaşlığında da həmin prinsiplərin tətbiqi kompleks xarakter daşımalı, vəhdət halında çıxış etməlidir. Bu prinsiplərin müəllim–valideyn əməkdaşlığının konsepsiyasını yaratdığını nəzərə alsaq, onu bir sistem kimi də təsəvvür edə bilərik. Onda bu prinsiplərin hər biri həmin sistemin komponentləri kimi çıxış edir. İbtidai siniflərdə müəllim–

valideyn əməkdaşlığında rəhbər tutulan həmin prinsiplərin səmərəli tətbiqi üçün münasib pedaqoji şərait olmalıdır.

*Pedaqoji şərait* dedikdə, qarşıya qoyulmuş təlim-tərbiyə vəzifələrinin həllinə yönəlmiş məzmun, forma, metod və resursların məcmusu başa düşülür. İbtidai sinif müəllimləri valideynlərlə əməkdaşlıq zamanı həm yuxarıda sadaladığımız prinsiplərin kompleks tətbiqinə çalışmalı, həm də bu münasibətlərin səmərəli olması üçün xarici (mühit) və daxili amilləri (valideynlərin pedaqoji ehtiyacları və s.), prosesə təsir göstərən subyektiv və obyektiv təsirləri nəzərə almalıdırlar. Bu səbəbdən müəllimlər ailə ilə əlaqə yaradarkən iki aspektə xüsusi diqqət yetirməlidirlər: 1) təşkilati; 2) psixoloji-pedaqoji.

Həm təşkilati, həm də psixoloji-pedaqoji aspektlərin nəzərə alınması ibtidai sinif müəllimlərindən pedaqoji səriştə və peşəkarlıq tələb edir. Müəllim−valideyn əməkdaşlığında qarşıya qoyulmuş vəzifələrin həlli bir tərəfdən əməkdaşlığın baş tutması üçün münasib şəraitin seçilməsindən, valideynin ailəyə bələdliyindən, təşkilati işlərin düzgün planlaşdırılmasından, həmçinin pedaqoji-psixoloji amillərin nəzərə alınmasından asılıdır.

## Nəticə / Conclusion

Fikrimizcə, müəllim−valideyn əməkdaşlığının səmərəliliyinin şərtləri çox olsa da, müəllim 4 şərtə xüsusi diqqət yetirməlidir:

1. *Müəllimin valideynlərlə qarşılıqlı əlaqənin formalaşdırılmasının zəruriliyini tədris prosesinin məqsədi və meyarı kimi dərk etməsi.* Məqsəd təhsil prosesinin əsas şərtidir, fəaliyyətin nəticələrinin proqnozlaşdırılmasıdır. O, həm də diaqnostik xarakter daşımalıdır.

2. *Əməkdaşlıq prosesində valideynlərə fərdi yanaşmaq, yaradıcılıq nümayiş etdirmək, görüşlərdə dialoqa üstünlük vermək.* Bu şərt müəllimin şəxsi yanaşmasını əks etdirir. Müəllim təlim-tərbiyə fəaliyyəti üçün strategiya hazırlayır və konkret situasiya üçün hərəkət taktikasını müəyyənləşdirir.

3. *Müəllimin peşəkar ünsiyyət bacarıqlarına malik olması.* Psixoloqların fikrincə, kommunikativ bacarıqlar ünsiyyət mədəniyyətinin tərkib hissəsidir. Valideynlərlə qarşılıqlı əlaqə prosesində müəllim ünsiyyətin bütün funksiyalarını (təmas, informasiya, təhrikedici, əlaqələndirmə, anlama, iştirakçılarda emosional vəziyyət yaratmaq, təsir göstərmək və s.) yerinə yetirməli, kollektiv fəaliyyətin və əlaqələrin təşkilatçısı olmalıdır. Bu da, öz növbəsində, müəllimin bir sıra ünsiyyət bacarıqlarına malik olmasını tələb edir.

4. *Müəllimin empatiya və refleksiya qabiliyyətlərinə malik olması.* Bu şərt üçüncü şərtlə sıx bağlıdır. Müəllimin valideynin və ya şagirdin halına yanması,

şagirdin uğursuzluğuna görə onunla birlikdə həyəcan keçirməsi, onun hisslərinə şərik olması, hiss və həyəcanını bölüşməsi onun empatiya hissinin güclü olmasına dəlalət edir. Təlim prosesində şagirdin emosional vəziyyətini onun davranışından, hərəkətlərindən və mimikasından hiss etmək də müəllimin empatiya qabiliyyəti hesab edilir.

Təlim-tərbiyə prosesi cəmiyyətin sosial-iqtisadi və mədəni tələbatı ilə bağlı olduğundan, son yüz ildə müəllim-valideyn əməkdaşlığının modelləri də bu tələbata uyğun olaraq dəyişmişdir. Müasir dövrün tələblərinə uyğun olaraq, müəllim-valideyn əməkdaşlığının yeni modelləri formalaşmaqdadır. Məktəbin ibtidai sinif şagirdlərinin valideynləri ilə əlaqəsinin yeni modeli yaradılarkən, cəmiyyətin tələbatları, məktəbin məqsədi ilə yanaşı, ailənin də pedaqoji potensialının və fərdi xüsusiyyətlərinin nəzərə alınması səmərəli nəticə verə bilər.

**Problemin aktuallığı**. Məqalədə valideynlərdə pedaqoji kompetensiyaların formalaşdırılması kiçikyaşlı məktəblilərin təlim-tərbiyəsinin vacib komponenti kimi təhlil edilir. Tədqiqatın materialları pedaqoji prosesin iştirakçısı olan ibtidai sinif şagirdlərinin valideynləri üçün mühüm əhəmiyyət kəsb edir.

**Problemin elmi yeniliyi**. Azərbaycan elmi-pedaqoji ədəbiyyatında son illərdə müəllimlərin pedaqoji səriştəliliyi ilə bağlı xeyli araşdırmalar aparılsa da, təlim-tərbiyə prosesinin əsas iştirakçılarından olan valideynlərdə pedaqoji kompetensiyaların formalaşdırılması ilə bağlı heç bir tədqiqat işi aparılmamışdır.

**Problemin praktik əhəmiyyəti.** Gələcək ibtidai sinif müəllimlərinə valideynlərdə pedaqoji kompetensiyaların formalaşdırılması ilə bağlı zəruri məlumatların verilməsi, pedaqogika fənninin tədrisində valideynlərdə pedaqoji kompetensiyaların formalaşdırılması haqqında mövzu daxil etməyi təklif edirik.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Azərbaycan Respublikasının ailə məcəlləsi. http://www.e-qanun.az/code/10
2. Abbasov A. (2019). Ailə pedaqogikası. Bakı, "Mütərcim", 270 s.
3. Axundov M.F. (1988). Əsərləri. 3 cilddə. II c. Bakı, "Elm", 388 s.
4. Çələbiyev N. (2015). Ailə psixologiyası. Bakı, "Mütərcim", 422 s.
5. Əhmədov B. (1974). Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları. Bakı, "Maarif", 114 s.
6. "Əkinçi" qəzeti (1875–1877). (1979). Tam mətni. (ərəb əlifbasından kiril əlifbasına çevirəni və nəşrə hazırlayanı: T.Həsənzadə). Bakı, "Azərnəşr", 464 s.
7. Muradxanov M., İtelson L. (1955). Məktəbdə şüurlu intizam tərbiyəsi. Bakı,"Azərnəşr", 120 s.
8. Paşayev Ə., Rüstəmov F. (2012). Pedaqogika. Bakı, "Elm və təhsil", 463 s.
9. Şahtaxtınski M. (2006). Seçilmiş əsərləri. Bakı, "Çaşıoğlu", 432 s.
10. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. "Xalq qəzeti", 19 iyun, 2009-cu il.
11. Suxomlinskiy V.A.(2003). O vospitanii. Zolotoy fond pedaqoqiki / sost. D.İ. Latışeva. – M.: "Shkolnaya pressa".